# Çexiya ölkəmizin etibarlı tərəfdaşıdır



Dünən Milli Məclis Sədrinin müavini, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərov ölkəmizdə səfərdə olan Çex Respublikası Senatının sədr müavini Yirji Şestakın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdü. Görüşdə iki ölkə arasındakı əlaqələrdən və inkişaf perspektivlərindən danışıldı.

Qonaqları Azərbaycan parlamentində salamlamaqdan məmnunluğunu ifadə edən Valeh Ələsgərov bildirdi ki, Çexiya və Azərbaycan arasında istər parlament, istərsə də hökumət səviyyəsində əlaqələr yüksəkdir. Onun sözlərinə görə, Azərbaycan Çexiya ilə dostluq, suveren bərabərlik, qarşılıqlı etimad və müxtəlif sahələrdə hərtərəfli əlaqələr yaradıb. Hər iki ölkənin dövlət başçılarının imzaladığı Azərbaycan Respublikası ilə Çex Respublikası arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamənin təsdiq edilməsi isə bu əlaqələri daha da möhkəmləndirib.

Qeyd edildi ki, səfər çərçivəsində baş tutacaq görüşlərdə aparılacaq danışıqlar qarşılıqlı əməkdaşlığın daha da inkişafına təkan verəcək. Görüşdə parlamentlərarası və digər sahələrdəki əlaqələrdən bəhs edildi, bu işdə dostluq qruplarının fəaliyyəti yüksək qiymətləndirildi.

Azərbaycana ilk dəfə səfər etdiyini bildirən Çexiya Senatının sədr müavini Yirji Şestak ölkəmizdə olmaqdan şərəf duyduğunu vurğuladı. Qonaq təkcə siyasi sahədə deyil, digər istiqamətlərdə də ölkələrimiz arasında yaxşı əlaqələrin mövcudluğunu xatırlatdı. O, həmçinin iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi perspektivlərinin olduğunu qeyd etdi. Onun sözlərinə görə, Çexiya və Azərbaycan şirkətləri xüsusən nəqliyyat sahəsində qarşılıqlı əməkdaşlıq edir. Bu isə iki ölkə əlaqələrinə müsbət təsir göstərir. Bununla belə, sözügedən sahədə əməkdaşlığın daha da dərinləşdirilməsinə ehtiyac var.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə edilib.

***Elgün MƏNSİMOV,***
***Fərman BAĞIROV (foto),***
***"Azərbaycan"***

Azərbaycan.- 2017.- 24 oktyabr.- S.24.